

*Allahverdi Eminov*
*Yazıçı, pedaqoq*

# Gecikmiş yazı

## Qoşa qanadın sirri

**Ağarəhim Rəhimovla tanışlığımızın tarixi Pedoqoji Elmlər İnstitutu ilə (heyif bu adı itirdik) bağlıdır və baxmayaraq biz ayrı-ayrı ixtisaslar üzrə çalışırdıq. Azərbaycan dilinin tədrisi metodikasından yazırdı. Öndə isə professorlardan Əziz Əfəndizadə, Yəhya Kərimov, Məmməd Həsənov, Əli Fərəcov kimi sanballı mütəxəssislər vardı və hansısa bir cavan araşdırıcı üçün vahimə yarada bilərdi. Ağarəhim Rəhimovsa çəkinmədi, namizədlik, az sonra doktorluq dissertasiyalarını uğurla başa çatdırdı. "Azərbaycan dili" (IV sinif üçün), "Azərbaycan dilinin tədrisi metodikası" (ali məktəblər üçün) dərsliklərini çap etdirdi. Üstəgəl, "Sintaksisin tədrisinin nəzəri və praktik əsasları", "Azərbaycan dili dərslərində monoloji nitqin inkişafı", "İbtidai siniflərdə oxu təlimi" və s. monoqrafiyalarının, daha yüzlərlə elmi məqalələrin müəllifi oldu. Bu sadalananlar elə-belə iş deyil və gərcin istedadın, kövrək inadkarlığın məhsuludur, təntənəsidir. Bu uğurları kənardan izləyirdim, yaxından tanış olurdum.**

Əlbəttə, bu gün də var ki, pedoqoji elm-lər sahəsində diletantlar, məhdud mövzu çərçivəsində yellənçəkdən asılansayağı fırlananlar, yalnız imzasının mətbuatda cücərməsiylə (böyüməsi ilə yox) öyünənlər nəhayətdə fərdi üsluba qismət olmayanlar çoxalıb və yüksək iddialarla adlarına çata bilmirlər, bir neçə dəfə bu barədə sözümü demişəm, digəl qaranlıq otaqda hansı ağ canlını axtarmalıdırlar?! İş elə gətirdi 90-cı illərin əvvəllərində Ağarəhim Rəhimov orijinal ideyanın - Qızlar Seminariyasını yaratmaq təşəbbüsündə bulundu və bunu eşidəndə bir də ona görə qürurlandım ki, "hərdən geriyə baxaq" ("Azərbaycan" qəzeti) adlı məqalə ilə belə retrotipli - əlbəttə - yeni redaktədə tədris müəssisələrinin yaradılması zərurətini irəli sürmüşdüm. Axır ki, Bakı Ali Pedaqoji Qızlar Seminariyasının təsisinə nail oldu, sözün həqiqi mənasında maraqlı, orijinal bir tədris tipini yaratdı, bu da hər şey deyil; necə ki, respublikamızda zahiri təmtərağa bələnmiş, içərisi elmdən, təhsildən kasadlaşmış özəl tədris müəssisələrimiz mövcuddur! A.Rəhimov sanballı pedaqoji kadr bloku yaratdı və onların potensial imkanlarını xərcləməsinə şərait yaratdı. Mən orada öz dəsti-xətti, şəxsiyyəti və təmizliyi olan alimlər, müəllimlər görürüəm. Belələrinin adını çəkməyə mənim bəlkə də haqqım çatmır., ünsiy-yətim mütəhərrik deyil. Amma ümumi kontekstdə tanıyıram. Və mən rektorla söhbətimdə onu da kəsdirdim ki, özünəgüvənənlər seminariyaya ayaq açır və az sonra mənəviyyatın nəhəng daşına toxunub (bəlkə dəyib?) uzaqlaşırlar. Bu barədə danışanda düzü, qürurlandım ki, Ağarəhim müəllimin pedaqoqluqla xarakteri ayırmır, əksinə, birləşməsini istəyir. Bu iki qütb bir harmoniyada qovuşmalıdır. Qarşıdakılar - tələbələrsə kövrək və sərt opponentlərdir və həm də güzəşti bacarmırlar. Bəlkə də əksinə olsaydı onlar seminariyada ayaq saxlamazdılar və utancaq halda rektorun, professorun, müəllimlərinin kobinetinə astadan ayaq basıb: "Müəllim auditoriyası istehsalat dəzgahından yüksəkdə olardı" təəssüfü ilə uzaqlaşardılar. Rektor bir pedaqoq və yazıçı intiusiyası ilə belə prosesi sezmiş işi məhz müəllim - tərbiyəçi, üstəgəl intellektli - axtarışçı paralelində qurmuşdur. Unutmayaq ki, ali məktəbin tədris tipindən xeyli fərqlənən seminariya strukturunda yüksək metodik səciyyəli müəllim yetişdirmək kollektiv əməkdən savayı fərdi səyin nəticəsidir. Mən bu günkü təhsil sistemində ənənəvi retro proseslərə bər-bəzək yapıb yeni quru-luşda - ssenaridə cəmiyyətə təqdimin əleyhinəyəm. Və məsələ geniş meydan mübahisəsi, pole-mika yox - realizm tələb edir. Ali Pedaqoji Qızlar Seminariyasının fəaliyyəti, onun məzunları ilə tanışlıq göstərir ki, A.Rəhimov öz konsepsiyasında haqlıdır. Heyif ki, bu gün də zahiri effektin parıltılarına aludəçiliklə professor - müəllim potensialını gərəksiz bir şey kimi kənara tullayan və əvəzində şəxsi intereslərinə üstünlük verən rektorlar və onun əlaltıları az deyil. Təhsili çılpaqlaşdı-rıb, onun natural bədəninə yaraşmayan paltar keçirtmək ənənəsi daha da şaxələnir, yeriyir və maddi ehtiyac ucbatından yazıqlaşan pedaqoq - alimlərimiz dəyərdən düşür. Rektor, professor Əmirulla Paşayev, dosent Tofiq Seyidovla bir olan söhbətimizdə bu incə məsələlərin qlobal çalarlarına toxundu. Onu da öyrəndim ki, o yaşına və tituluna pərəstişdən doğub, tələm-tələsik auditoriyaya buraxan rəhbər - rektor deyil, buna mənən sevindim. Pedoqoji elmimizi böyrü üstə diyirləkdirən bu iki amildir ki, təhsili idarə edənlər də, tədrisin başında duranlar da belə bir psixo-logiyadan dördəlli yapışıblar...

Ağarəhim Rəhimov Pedaqoji Elmlər İnstitutunda əsl məktəb keçib və o mühitin təsirini damarlarında hiss eləməkdədir. Bu tədqiqat ocağı ona görə yaşayacaq ki, bütün əməkdaşalarını pedaqoji elmlərin incəliklərinə yoluxdurub. Təəssüflənirəm ki, artıq o okeandan qoca dənizçinin akulası kimi azadlıqdan məhrum olub və onu qayığın yedəyinə sahilə gətirirlər. Görəsən o sağ-salamat gəlib çıxacaqmı? Sözümün canı var, ali pedaqoji təhsil müəsissələrinə əsl mütəxəssis rəhbərlik etməlidir, canını bu çətin yolda fədaya çevirənlər başçı olmalıdır. Bilmirəm, "təsisçi" adı altında qeyri-peşəkarlar niyə səlahiyyətləri-ni başa düşmək istəmirlər! Təsisçisən sağ ol ki, xeyirxah iş görmüsən. Amma get dur kənarda, nəfəsin dəysin o müəsissəyə, maliyyə-təsərrüfat işi ilə məşğul ol, daha tədrisə müdaxilə eləmə. Yəni bu real məntiqə, nizamdan çıxmış sosial gerçəkliyə səlahiyyəti çatan bir ali qurum tapılmayacaq? Ümüdliyəm!

Ağarəhim müəllimdə bir üstün pedaqoqluq da ondadır ki, qızların mənəvi psixologiyasını duyub qiymətləndirir. Bu elə-belə yanaşma deyil ki, onların anadangəlmə təbiiliyinə onun müəllimi aludə olsun, - xeyr, burada qızlarımıza məxsus ədəb-ərkanla, yaşlı nəslə xas ağırlıq, zabitəlik bir-birini tamamlamalıdır. Sabah o qızın - ananın yaddaşına bir ata şəxsiyyəti formalaşmalıdır. Əlbəttə, bu müsbət prosesin mərkəzində birinci şəxsin - rektorun əxlaqı dayanır. Onda az qala birincilərin əxlaqından tələbələr, onların tabeçiliyindəkilər bezikiblər: Yoldaşını göstər, sənin kimliyini deyim - zərb məsəlini tədris planlarına daxil edək. Paradoks da görünsə belədir. Ağarəhim müəllim nisbətən cavan da olsa müəllim - alim əxlaqına, davranışına zərrəbin gözü ilə baxır, hərəkət edən zaman daha yaxına gətirir, içərisini görür. Bu barədə mən haçansa demək istəyirdim. Orada çalışan dostlarım bu cəhəti vurğulayırdılar və onun sərtliyini deyirdilər. Elə məqamlar var ki, yumşalsaq bütün dəyərlərimizi itirərik, çünki şərqli psixologiyamız bu gün xüsusilə cütləşibdir və əks cinslərə yuxarıdan aşağı baxmağa qəribə həvəs formalaşır. Buna ümid-sizəm!

Qızlar Seminariyasında mənəvi motiv bir də onların ana kimi formalaşması ideyasıdır. Bu sadə məsələ deyil; analıq qüdsiyyətinə malik olmayanlar yaxşı müəllim - tərbiyəçi statusu qazana bilməzlər. Ağarəhim müəllimin sözlərini xatırlamaq yerinə düşərdi: "Əziz ana! Qızlar Seminariyasını açanda da səni düşünmüşəm. Şəninə sığındığın böyük Yardana, atamın müqəddəs ruhuna, bir də sənin pak və təmizliyinə güvənmişəm. Orada təhsil alan qızların hər birini doğma övladlarım - Hicranım qədər, Sevincim qədər, Dinarım qədər sevirəm. Sizdən aldığım tərbiyənin tükənməz qüdrətini, danılmaz gücünü indi də duyuram". İntəhasız niyyətdir. Ağarəhim müəllim qızlar - gələcək analar üçün ali təhsil ocağı yaratmaqla, eyni zamanda burada zəngin müşahidələrlə qarşılaşmışdır. Hər biri gənc tələbənin addımı onun gələcək taleyinin ilkin səsidir. "Bacı məhəbbəti", "Qızları analarıı tərbiyə edir", "Analar səhv edəndə", "Bir ömrün yaşantıları" kimi publisist məqalələri kövrələşən ömrün həzin piçıltılarıdır. Bu mənada yazıçı özü axtarıb sahibini tapır.

Deyəsən, yazımın pedaqoji yönümü məcrasını dəyişdi. Düzü, buna meylim vardı, amma birdən-birə buna cəsarət eləmirdim. Necə ki, A.Rəhimovun "Yaddaşda yaşayan xatirələr" kitabını vərəqlədim, rahatca nəfəsimi dərdim, Mən bu toplunu müəllifin avtobioqrafik əsəri hesab edərdim. Tanıdığım, gözümüzün önündə çətin və ümidli yol adlayan alim, yazıçı dostumun hisslərini yaşadım. Bu şans qisməti mənim nəslimin ömür meridianında daima bərk vurmuşdur. Bakı mühiti, onun zahirən yad sakinləri, səliqəli binalarının pəncərələrindən həsrətimizə süzülən işıqların sonsuzluğu, ailə qayğılarının nikbin ümidi və nəhayət, müstəqil diqqətinin təntənəsi. Yaxşı ki, belə müqəddəs hisslər yalnız xatirələrə çəkilib qalmır, yazarların qələmində əbədiləşir. Mən belə ovqatla yazıçı Ağarəhimin "Mən kiməm - mən insanam", "Göz yaşları", "Qaranlığa işıq düşür", "İtirilən dünyam", "Tələbəlik illəri", "Əzablı günlərim", "Mənim də evim olarmış" və s. yazıların oyatdığı kövrək hisslər. Və bir də evsizliyin evlilik möcüzəsi! Hamımızın başına gələn həsrətin sonu.

Publisistika çətin janrdır, ona görə ki, faktlar soyuq mirvari dənələrinə bənzəyir, amma insan yaxasında istinir, canlanır və nəfəs alır. Ağarəhimin yaddaşı zəngin olduğundan həyati faktlar müşahidə süzgəcindən keçib bütövləşir, şəxsləşir. Axı həyat olan hissdə yaşarlıq var, necə ki, maddi və ruhi yaxınlıq adamın mahiyyətinə nüfuz etməkdən əlavə bir daxili səy, inadkarlıq yaratmalıdır. Belə olmasa idi, əlinə qələm alan şəxs öz intellektinin və emosiyasının quluna çev-rilərdi. Və bu qoşa tarazlığın təminatında insan içərisində yaradıcının obrazını gəzdirməyi bacar-mazdı. Mən "Yaddaşda yaşar xatirələr" kitabını gələcəkdə bütövləşəcək memuarın ilk səhifələri hesab edirəm. Bu yaşantılarda idrakla ruhun vəhdətindən doğan keçmiş vardır. Və bir də vali-deyn: "Ata - Ana müqəddəsliyinin" itirilməyən qiyməti. Ağarəhimin atası barədə kövrək sözü bir övlad qədirbilənliyə ən layiqli misaldır: "Əziz mərhum atamın ruhu yaxşı günümüzdə də, pis vaxtlarımızda da bizimlə olub, hər dəfə çətinə düşəndə, çıxış yolu tapa bilməyəndə atalarımızın böyük amalı, vəsiyyətləri, cismin xeyirxahlığa bələnmiş istəyi bizə bələdçilik edib, istiqamət verib yolumuza işıq salıb" - yaddaşın müdrükliyidir.

İntellektuallıqla bədiiyyatın - ruhun qovşağında yaxşı əsərlər yaranır. Yaradıcılıq prosesinin dönən təfəkkür, necə ki, A.Rəhimovun "Əsgər anası" kitabı ilə tanışlığımda yuxarıda toxunduğum məsələnin davamını gördüm. Müəllifin həyat, insan, tale və s. barədə lirik - düşüncəli təəssüratının statik təcəssümü. "Mən dəniz oluram", "İnsanlıq dünyasına", "İnsanlar var dünyada", "Göylərin cəlalı", "Xəyali sevgim mənim" adlarından da göründüyü kimi, müəllifin elmin dolanbacından ayrılıb, hisslər aləminə baş vurmasıdır. Ona görə də bu iki hissi yaşayanalar çox vaxt kosmosla Yerin arasındakı ruhi - maddi bağlılıqdan əzab çəkirlər. Amma xoşdur, Vallah səadətdir!..

Bu yaxınlarda qəzetlərdə oxudum ki, Ağarəhim Rəhimovun yeni "Səfalət" romanı işıq üzü görüb. Müzakirələrin gedişi məni qürurlandırdı ki, qələm dostumun bədii uğuru səngiməyib. Və bu ovqatda onun maraqlı hekayələrini "Canavar balası", "Teleqram", "Nida" və s. kinossenarilərini "Əsgər anası" pyesini romanlarının, habelə "İkili dünyam", "Qoşa qanad", "Ovlaq keçidi" xatırladım və bu əsərlərlə son romanı arasında bağlılıq gördüm. Ümumiyyətlə, roman janrı yazıçı təxəyyülünün həyat hadisələrinə epik yanaşma - təsvir üsuludur - vasitəsidir. Şübhəsiz ki, onun mərkəzində müəllifin Şəxsiyyəti, yaşadığı sosial mühiti durur. Hələ gənc "aya-masını itirməyənə Ağarəhim müəllim duyduğu ab-havanın, ünsiyyətdə" bulunduğu adamların gedişi və davranışı psixologiyasını ödəməliydi. Həqiqətən də ortaya sanballı əsər qoydu. Mən romanın məziyyətlərindən ətraflı danışmağı qarşıma qoymamışam və başqa bir mövzudur. Lakin pak və mürəkkəb xarakterli qadınlarımızın cəmiyyətdəki yeri: qiyməti və mövqeyi daima bədii təsvirə ehtiyac duymuşdur. A.Rəhimov son çağdaş ədəbiyyatımızda ilk dəfədir belə bir kövrək və sərt mövzuda roman qələmə almışdır. Onu yalnız alqışlamaq gərəkdir.

Bir xeyli vaxtdı içərimdə bir boşluq, kimsəsizlik duyurdum. Mən belə günlərimi özümə tuşlanmış ruhi intiqam hesab eliyirəm, o çağacan bir "boşalma" təntənəsinin gəlişi həsrətini yaşayım. Belə zamanımda fars dilinin tədrisi üzrə istedadlı alim - mütəxəssis Tofiq Seyidovla təsadüfən rastlaşdım. Onunla söhbətimiz həmişə tutmuşdur. (Ünsiyyətdə bu, böyük işdir!). O, tələbələri üçün "Fars dili" dərsliyi yazmışdı. Söz arası dedi ki, Bakı Ali Qızlar Seminariyasında yeni dərs ilinə hazırlığımız başa çatıb, müəllimlərimizin ovqatı da ələdir.

Sevindim. O, bunu duyub dedi:

- Bəlkə birə sarı - seminariyaya gedək. Ağarəhim müəllim də indi özünü yaxşı hiss edir, qəzadan sonra.

Düzü, qələm dostuma yoluxmağa imkanım olmamışdı və bunun üçün də əzab çəkirdim. İnsan insana ağrılı dəqiqələrində daha çox lazımlı olur... Və ordan-burdan söz salmışdıq. Tofiq müəllim arada soruşdu ki, bu yayda nə yazmısan? Sonuncu məqaləni iyulun sonunda oxumuşam. Bildirdim ki, bir-iki həftədir yazıya otura bilmirəm, daxilimdə boşluq var. Ümidliyəm ki, hansısa yazı yol gəlir. Və gülümsündüm.

Seminariyaya gəldik. Rektor kabinetində qayğılı oturmuşdu, bu da təbiiydi. Görüşdük, hal-əhval tutduq. Bir azdan maraqlı dilçi alim, professor Nazim Məmmədov da içəri gəldi. Elmdən, yaradıcılığdan, öncə, bu günün tələbə - müəllim münasibətindən danışdıq. Yuxarıda az-çox söz saldığım məsələlərin taleyinə gəlib çıxdıq. Və Ağarəhim müəllim mənə son illərdə nəşr olunmuş bir neçə kitabını avtoqrof - xatirəsiylə bağışladı. Kitabın alınması çətinliyində yaradıcılığı izləmək baxımından bu mənim üçün gözəl hədiyyəydi...

**Məktəbi tərk eləyəndə yüngülləşmişdim, xeyli yolu piyada gəlirdim ki, özümü toplayım, canımdan qeybə çəkilmiş hissləri oyadım. Tale bunu mənə çox görmədi, dolmuşdum, cızmaqara üçün hazırdım. Və elə də oldu. Görünür, haçansa üzü mənə yol gələn istedadlı yazıçı və alim, xeyirxah şəxsiyyət timsalında dərin hörmət bəslədiyim professor Ağarəhim Rəhimov barədə bu cümləyə qədər sərlövhəsini tapmadığım bir məqaləni birbaşa yazıb nöqtəsini tamamladım. Bəlkə elə yazını başlıqsız verim? Mümkünmü? Hə, axır ki, tapdım...**